# Ümumi məlumat

Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub-şərqində - Araz çayının sol sahilində - cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmiş, işğaldan əvvəl ərazisi 1050 $km^2$, 23 inzibati ərazi nümayəndəliyi olmaqla 1 şəhər, 4 qəsəbə, 92 kənddən ibarət olmuşdur. Cəbrayıl rayonu ilə Bakı arasında olan məsafə 338 km-dir. Rayon ərazisində zəngin tarixi-memarlıq abidələri mövcuddur. Onların bir qismi işğal dövründə erməni vandalları tərəfindən dağıntılara məruz qoyulmuşdur.

18 avqust 1993-cü il tarixdə erməni işğalçıları Cəbrayıl şəhərini mühasirəyə almışdı. Cəbrayıl fədailərinin və Zəngilan rayonundan köməyə gələn özünümüdafiə qüvvələrinin şiddətli müqavimətinə baxmayaraq Cəbrayıl şəhəri 1993-cü il 23 avqust tarixində Ermənistan tərəfindən işğal olunmuşdu. Birinci Qarabağ müharibəsi gedişində Cəbrayıl rayonu ümumilikdə 400 nəfərə yaxın şəhid vermişdir. 1994-cü il Horadiz əməliyyatı zamanı şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində milli ordu irəliləsə də, Cəbrayılın yalnız Cocuq Mərcanlı kəndi azad olundu. 2 aprel 2016-cı ildə Cocuq Mərcanlı kəndi ərazisində yerləşən Lələtəpə yüksəkliyi dördgünlük müharibə zamanı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib.

Təhlükəsizlik Şurası sədrinin bəyanatına məhəl qoymayan Ermənistan avqustun 23-də ərazisi 1050 $km^2$, əhalisi 65 min nəfər olan Cəbrayıl rayonunu işğal etdi. Bununla bağlı olaraq Azərbaycan Ulu öndər Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi. Həmin müraciətlərə cavab verilməmiş, avqustun 31-də Ermənistan silahlı qüvvələri 91 kəndi, iki qəsəbəsi, bir şəhəri olan Cəbrayıl rayonunu işğal etdi.

Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 (14 oktyabr 1993), Zəngilan rayonunun işğalı ilə əlaqədar isə 884 (11 noyabr 1993) saylı qətnamə qəbul edilərkən Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏM-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasını üstün tutdular. Cəzasız qalmasından ruhlanan və bundan istifadə edən Ermənistan Respublikası BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi qətnamələrə məhəl qoymadı.

1993-cü ilin dekabrından 1994-cü il yanvarın 6-dək Azərbaycan Ordusunun həyata keçirdiyi ən uğurlu əməliyyatlardan biri Horadiz əməliyyatı nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndi Azərbaycanın nəzarətinə keçdi. Əməliyyatda xüsusi qəhrəmanlıq göstərdiklərinə görə 8 nəfər “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.

Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Ötən dövr ərzində çoxşaxəli və dürüst xarici siyasətin yürüdülməsi, həyata

keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi. Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsini zaman məsələsinə çevirdi.

2016-cı il aprelin 2-də Ermənistan yenə hərbi təxribata əl ataraq, qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı ərazilərə, o cümlədən məktəblərə, xəstəxanalara və ibadət yerlərinə atəş zərbələri endirdi. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri dördgünlük müharibə müddətində düşmənə layiqli cavab verdi, əks-həmlə nəticəsində Lələtəpə yüksəkliyi, Füzuli, Cəbrayıl və keçmiş Ağdərə rayonunun işğal altında olan 2 min hektardan çox ərazisi azad edildi. 24 yanvar 2017-ci ildə "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. 14 iyun 2017-ci ildə Prezident İlham Əliyev Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpadan sonra açılışında iştirak etmişdir. Həmçinin Prezident İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşadakı Yuxarı Gövhərağa məscidinin bənzəri olan məscid tikilib istifadəyə verilib.



2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi.

Azərbaycan dövləti 2020-ci il iyulun 30-da, avqustun 5 və 6-da BMT Təhlükəsizlik Şurasına müraciət edərək Ermənistanın hərbi təcavüzünün dayandırılması üçün təsirli tədbirlərin görülməsini tələb etdi. Təhlükəsizlik Şurasının sədrinə avqustun 18-də yenidən müraciət edən Azərbaycan dövləti Ermənistan tərəfinin Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədiyini, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmadığını, azərbaycanlılar yaşayan kəndləri yandırdığını, Füzuli, Cəbrayıl,

Qubadlı istiqamətlərində hücumu genişləndirdiyini bildirdi, təcavüzün təcili dayandırılması üçün Təhlükəsizlik Şurasının iclasının çağırılmasını tələb etdi.

2020-ci il sentyabrın 24-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən xəbərdar etdi və təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyətin tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bildirdi.

2020-ci il sentyabr ayının 27-də səhər saat 06.00 ətrafında Ermənistan silahlı qüvvələri növbəti dəfə daha geniş miqyasda Azərbaycan Ordusunun mövqeləri və təmas xətti boyunca yerləşmiş yaşayış məntəqələrinə qarşı hərbi təxribata əl atdılar. Onlar iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından həmin mövqeləri intensiv şəkildə atəşə tutdular. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev erməni silahlı qüvvələrinin yeni hərbi təxribatı haqqında məlumat alan kimi, Müdafiə Nazirliyinin, habelə digər aidiyyəti üzrə qurumların rəhbərliyinə bu hərbi təxribatın qarşısının alınması üçün qətiyyətli cavab tədbirlərinin görülməsi haqqında göstəriş verdi. Nəticədə Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatları başlandı. Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını işğal altında olan ərazilərdəki təmas xəttinin üç istiqamətindən - Ağdam-Tərtər, Murovdağ və Füzuli-Cəbrayıl istiqamətlərindən həyata keçirməyə başladı. “İkinci Qarabağ”, yaxud “Vətən müharibəsi” kimi adlandırılan 44 günlük müharibə başlandı.

44 günlük Vətən müharibəsinin ilk dəqiqəsindən sonunadək döyüş əməliyyatlarına Ali Baş Komandanın özü şəxsən rəhbərlik edirdi.

Azərbaycan Ordusu yayındırıcı, çaşdırıcı manevrlə əsas hücumu cənub-şərq cəbhəsindən, Füzuli-Cəbrayıl istiqamətindən başladı. Elə ilk həmlədən qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət etdi və cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susduruldu. Ardınca da qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatı başladı.

Müharibənin elə ilk günündə Azərbaycan Ordusunun hissə və bölmələri təmas xətti boyunca xüsusi möhkəmləndirilmiş müdafiə xətlərinə malik erməni mövqelərinin üzərinə sürəkli hücuma keçdilər. Günün birinci yarısında artıq bəzi istiqamətlərdən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı. Nəticədə, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murovdağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Adları çəkilən yaşayış məntəqələri Vətən müharibəsinin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular.

Sentyabrın 30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verərək bütün cəbhəboyu tutduğu bir çox mövqelərdən geri çəkilməyə məcbur edildi. Bu müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 artilleriya qurğusu, yaylım atəşli raket sistemləri, minaatanı, 30 hava hücumundan müdafiə vasitəsi, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 "S-300" zenit-raket kompleksi və digər mühüm hərbi vasitələri darmadağın edildi, xeyli sayda döyüş texnikası qənimət götürüldü.

Oktyabrın 3-də rəşadətli ordumuz Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybən, Quycaq kəndlərini işğaldan azad etdi..

Oktyabr ayının ilk günlərində Cəbrayıl-Füzuli istiqamətində erməni hərbi qüvvələrinin müqaviməti qırıldı və onlar geri çəkilməyə məcbur edildilər.

Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini və onun ətrafında olan 9 yaşayış məntəqəsini - Daşkəsən, Decal, Karxulu, Şükürbəyli, Çərəkən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan kəndlərini işğaldan azad etdi. Cəbrayıl Vətən müharibəsinin gedişində erməni işğalından azad edilmiş ilk rayon mərkəzi oldu. Bu tarixi hadisə ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev radio və televiziya ilə xalqa müraciət etdi və yeni azad edilmiş yaşayış məntəqələrinin müjdəsini xalqa çatdırdı.

Oktyabrın 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri də işğaldan azad edildi.

Oktyabrın 9-da Cəbrayıl rayonunun Qaracallı, Əfəndilər, Süleymanlı və Qışlaq kəndləri, oktyabrın 15-də isə Doşulu kəndi düşmənlərdən təmizləndi.

Oktyabrın 18-də Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının dalğalanması isə bütün ölkəyə ruh yüksəkliyi bəxş etdi, ordunun şəxsi heyətində mübarizliyi və qələbə əzmini daha da artırdı. Ertəsi gün Cəbrayıl rayonunun daha 13 kəndi – Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri erməni işğalçılarından azad edildi.

Oktyabrın 20-23 tarixində Cəbrayıl rayonunun Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Balyand, Papı, Tulus, Hacılı, Tinli, Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli kəndləri Ermənistan ordusunun əsarətindən azad edildi.

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hofuslu, Çələbilər oktyabrın 26-da, Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac oktyabrın 28-də, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı oktyabrın 30-da, Çaprand, Hacı İsaqlı, Qoşabulaq noyabrın 2-də, Mirək, Kavdar noyabrın 4-də, Yuxarı Məzrə, Yanarhac noyabrın 7-də, Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər və Çələbilər kəndləri noyabrın 9-da işğaldan azad edildi.

Ümumiyyətlə, döyüşlərin ilk günündən son anınadək Cəbrayıl rayonunun kəndləri uğrunda döyüşlər getdi. Nəticədə, Cəbrayıl şəhəri və rayonun 90 kəndi azad edildi.



Cəbrayılın təcavüzünə son qoyulması ilə Azərbaycan-İran sərhədinin böyük hissəsinə dövlət nəzarəti bərpa edildi.

Bu döyüşlərdə Azərbaycan Ordusunun müxtəlif hərbi birləşmələri, o cümlədən xüsusi təyinatlılar böyük qəhrəmanlıqlar göstərdilər.

Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlıdan sonrakı hədəf hamıya məlum idi. Bütün yollar artıq Şuşaya aparırdı. Noyabrın 8-i, Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərinin erməni quldurlarından təmizləndiyi gün, Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər Günü kimi yazıldı.

2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktı – "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" imzalandı. Həmin gün Prezident İlham Əliyev xalqa müraciətində dedi: "Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq!".

Oktyabrın 7-dən başlayan ağır artilleriya döyüşləri iki gün sonra Hadrutun, eləcə də ətrafındakı yaşayış məntəqələrinin və strateji yüksəkliklərin Azərbaycan Ordusunun nəzarəti altına keçməsinə imkan verdi. Qoşunlarımızın bir qruplaşması düşmənin nəzarətində olan hakim yüksəklikləri azad etdi, digər qruplaşması isə Cəbrayıl və Xocavənd istiqamətindən gələn yolları nəzarətə götürərək Hadruta daxil oldu.

İkinci Qarabağ - Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazanaraq faşist Ermənistanı məğlub etdi, BMT-nin icra olunmayan qətnamələrini özü icra etdi və işğala son qoydu. Beləliklə, Ermənistan hərbi birləşmələrinin 4 il ərzində tədricən işğal etdiyi və 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, maneələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi.

Prezident İlham Əliyevin “Nə oldu, Paşinyan?!”, “Bəs Cəbrayıla yol çəkirdin?!” kimi kəlmələri dildən-dilə dolaşırdı, xalqın qələbə əhvalını daha da yüksəldirdi.

İkinci Qarabağ müharibəsində qələbə 3 minə yaxın Azərbaycan əsgər və zabitinin şəhidliyi bahasına başa gəldi. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

Müharibədən sonra cənab Prezident tərəfindən Zəfər təltifləri adını almış orden və medalların təsis olunması və on minlərlə hərbi qulluqçunun bu mükafatlarla təltif edilməsi Vətən müharibəsi iştirakçılarına - şəhidlərə, qazilərə, hərbi qulluqçulara və könüllülərə dövlətin, xalqın yüksək ehtiramının nümunəsidir. “Zəfər” və “Qarabağ” ordenləri, “Vətən Müharibəsi Qəhrəmanı” adları, “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, Cəbrayılın və digər rayonlarımızın işğaldan azad olunmasına görə medallar təsis edildi.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarda dalğalandırmış, ölkənin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərə, bütün şəhidlərə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı Sərəncamla sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü elan edilib.



14 fevral 2021-ci ildə dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndində oldular. Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 26 aprel 2021-ci ildə Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak etdilər.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb.

2021-ci il iyulun 7-də imzalanmış "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Zəngəzur yaylasının şərq hissəsində Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları vahid iqtisadi rayonda – Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirildi.

Dövlətimizin başçısının gündəlik qayğısı və nəzarəti altında işğaldan azad edilmiş bütün ərazilərdə böyük quruculuq və bərpa işləri həyata keçirilir. Yollar çəkilir, beynəlxalq miqyaslı aeroportlar inşa edilir, ərazilər minalardan təmizlənir, infrastruktur layihələri həyata keçirilir.

4 oktyabr 2021-ci ildə Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfəri zamanı "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin və Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoymuş, "Cəbrayıl" yarımstansiyasının açılışında, Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etmişdir. Prezident İlham Əliyev həmin səfər çərçivəsində Rayon Mərkəzi Xəstəxanasının, Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoymuşdur. Dövlətimizin başçısı Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoymuş və çıxış etmişdir.




Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 16 noyabr 2020-ci ildə işğaldan azad edilmiş Cəbrayıl rayonunda səfərdə olmuşlar. Dövlətimizin başçısı, Ali Baş Komandan Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıldı. Daha sonra Cəbrayıl şəhərində də üçrəngli bayrağımız dalğalandırıldı. Prezident İlham Əliyev dedi: "Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat

bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb”.



26 may 2022-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlini qoymuşlar. Həmçinin “Azərenerji” ASC-nin 330/110 kilovoltluq “Cəbrayıl” enerji qovşağının da təməli qoyulmuşdur.

19 oktyabr 2022-ci ildə Prezident İlham Əliyev Cəbrayıl Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak etmişdir. Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanış olmuşdur. “Azərişıq” ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir. 330/110 kilovoltluq “Cəbrayıl” Qovşaq Yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.



20 oktyabr 2022-ci ildə Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoymuşlar. Daha sonra Prezident Rəcəb Tayyib Ərdoğan ilə birgə “Azərbaycan-

Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi"nin, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoymuşlar.

Prezident İlham Əliyev 4 may 2023-cü ildə Xudafərin qəsəbəsinin təməlinin qoymuşdur. 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışında iştirak etmiş, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olmuşdur. "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoymuşdur. Daha sonra Şükürbəyli kəndinin və Horovlu kəndinin təməllərini qoymuşdur.



17 iyun 2023-cü ildə Prezident İlham Əliyev Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə birgə Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılışında iştirak etmişdir. Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Parkın prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin təşkili müəyyənləşdirilib. "Avto Lizinq Azərbaycan" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə töhfə verəcəkdir.

Cəbrayıl şəhərində və rayonun kəndlərində təhsil və mədəniyyət müəssisələri, sosial obyektlər yenidən inşa edilir, şəhər infrastrukturu formalaşdırılır.

Nazirlər Kabineti 25 iyul 2023-cü ildə "Cəbrayıl şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nını təsdiq etmişdir.

Prezident İlham Əliyev 2023-cü il sentyabrın 28-də Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub və şəhərdə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Dövlətimizin başçısı həmçinin “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti 31 iyul 2023-cü il tarixdə Sərəncam imzalayıb. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” həmin Sərəncama əsasən hər il oktyabrın 4-ü “Cəbrayıl şəhəri günü” kimi təntənəli şəkildə qeyd olunması qərara alınıb.



Cəbrayıl şəhəri və rayonu külündən yenidən doğulur. 30 ildən artıq doğma ocaqlarına həsrət qalan cəbrayıllılar yenidən ən müasir və abad şəkildə yenidən inşa edilən yer-yurdlarına qayıdırlar. Tezlikdə Cəbrayıl rayonunun daxil olduğu Şərqi Zəngəzur cənnətə çevriləcək.

**İstifadə edilmiş ədəbiyyat**

Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. Məlumat toplusu. Bakı, 2013.

Azərbaycan Milli Ensiklopediyası. 5-cı cild, Bakı, 2014.

Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Bakı, 2021.

Qarabağ həqiqətləri = Karabakh Realities = Истины Карабаха. Bakı, 2011.

Paşayeva Məhəbbət. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, 2022.

https://president.az

https://azertag.az/

https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

https://armenianvandalism.preslib.az/az_jabrayil.html

http://cabrail-ih.gov.az/az